

*Əli Rza XƏLƏFLİ*

Əzəl-axır... nə dəxli, düşmüsənsə sinəyə,
Əbədi bir yanğısan, ahsan, amansan, sevgi.
Nə dövranın köhnəlmir, nə vaxtın ötüb keçmir,
Hər yaşda, hər ömürdə doğru zamansan, sevgi.

Tabe olmaz inadın bəxtinin dediyinə,
Uymazsan, aldanmazsan sözü min don geyənə;
Min yerə budaqlansa, arzun, istəyin yenə,
Hissində, düşüncəndə əsas gümansan, sevgi.

Yoluna qar ələnər, başında şimşək oynar,
Eşqinin hərarəti qəlbində yanar, qaynar;
Gücsüzdür qasırğalar, tufanlar sənə neynər,
Dağlar başı zirvəndə çənsən, dumansan, sevgi.

Bayron da heyranlıqla gözəlliyə baş əyib,
İlahi gözəllikdən söz açıb, nəğmə deyib.

Sözün qəlbi çırpınar gözəlliyi vəsf etsəm,
Düşüncəm bəndə düşməz işığına yol getsəm.

Zaman elə hakimdir, vaxt ölçüsü dəyişməz,
Ağlı olan hakimlər zaman ilə döyüşməz.

Zamanın yaddaşında yalan şöhrət, şan qalmaz,
İnsanlığa yad olan kimsədən nişan qalmaz.

Zaman açıq kitabdır, fəhmi olan oxuyar,
Zamandan gördüyünə aqil hikmət toxuyar.

Gözlədim bir gün mənə zaman olsun öz sazım,
Müxalif oldu dövran, yandı səsim, avazım.

Bu da ömrün payızı, sıx əlimi dedim mən,
Ya da, qalan ömrümə uğur dilə, gedim mən.

Aşiqlərə sadiqdir, zamanın üzü dönməz,
Aşiqlərin işığı əbədi yanar, sönməz.

Mən də sözə aşiqəm, sözdür mənim ilk eşqim,
Şəhriyarın eşqidir eşqimdə mənim məşqim.

Zamandan səda gəldi; sinəni tök kağıza,
Könlündən gələn sözün düşsün dilə, ağıza.

Sevindi könül evim, zaman mənə gəl dedi,
Diş qıcadı əcələ, daha qorxma, gül dedi.

Salam zaman, izn ver, sənə təzim eyləyim,
Hüzurunda baş əyim, hörmətimi söyləyim.

Bu dünyanın gərdişi səndən keçir, ey zaman,
Düşüncədə durulur səndən keçən hər güman.

Bilmirəm nə gətirər sözünün nəhayəti,
Mən də sözə çəkirəm bu qəmli hekayəti.

İsaxanın söhbəti ötənlərə yol açır,
Yazı eşqim, sevgim də o günlərə qol açır.

İlqarın taleyini danışır birər-birər,
Qələm kağız üstündən kədər dərər, dərd dərər.

Axı niyə sevgilər qəmlərə düçar olsun,
Axı niyə xoş tale sevgidən qaçar olsun.

Tənha çinar altında mən görürəm İlqarı,
Tənhalıq sıxır onu, gülmür yazı, baharı.

Universitet günləri... hər gün görüşür onlar,
Onları başa düşür bu sevgini duyanlar.

Dərsə bir yerdə gedir, dərsdən də bir çıxırlar,
Ayrılığın səddini aşırırlar, yıxırlar.

Hər tənəffüs onlara bir nəfəslik vaxtıdır,
Hər görüş onlar üçün bəxtəvərlik taxtıdır.

Şənbə-bazar günləri... indi dözün, dayanın,
Həsrəti bir il olur sevənlərə hər anın.

Şənbə-bazar çıxmağı qadağandır Nanaya,
İlqar da dözə bilmir bu boşluğa, fənaya.

Ayrılıq günlərinə iztirab həmdəm olur,
Bu həmdəmin hər dəmi gənclərə qəm-qəm olur.

Dörd divar arasında çırpınır Nana özü,
Öz içindən yandırır onu, ocağı, közü.

Əli bir yana çatmır, kədərində boğulur,
Hər günün həsrətində o təzədən doğulur.

# III. Sevginin yanğısında

## *“Ölməyən sevginin dastanı” əsərindən parçalar*

Əyrilərə, düzlərə adın nizam, tərəzi,
Sənin uca varlığın görməz qəsdi, qərəzi;
Satılmazsan, əyarın bir dünyanın əvəzi,
Bir dönük bazarında sarı samansan, sevgi.

Koroğlular geysə də, igidlik, mərdlik kürkü,
Önündə əyiləndir hər savaşın ər türkü;
Gözlərində heç nədir dünyanın varı-mülkü,
Əvəzində xoş baxış, nəzər umansan, sevgi.

Saflığın, təmizliyin bulaq suyu - dumduru,
Günəşdən işıq alar, sönməz, yanar göz nuru;
Sənin könül evinə bəzək eşqin qüruru,
Qeybətçillər söz tapmaz, ağız yumansan, sevgi.

Bir yazılı qayasan, küləklər, yellər silməz,
Eşqin uca Allahın, tamaha, tova gəlməz;
Sərhəd bilməz duyğular, dil bilməz, millət bilməz,
Sən ayrıca peyğəmbər, dinsən, imansan, sevgi.

Ayrılığa yön görsə, təriqətlər, təkkələr,
Fəryadlar şahə qalxar, baş qaldırar cikkələr;
Diz çökər qabağında neçə hirslər, hikkələr,
Əl yetməz inadına... sən nə yamansan, sevgi.

Gözlərdə gizli qalan ilk sevgi göynəmidir,
Xələfli özü gördü, etirafın dəmidir;
Səni bilən, tanıyan hər duyğu bir gəmidir,
Yan alar sahilinə, açıq limansan, sevgi.

Zamanında düzələr çətin işlər, əməllər,
Zamanında qoyular yaxşı-yaman təməllər.

Yaxşılıqlar üstündə xeyir əməl ucalar,
Yaxşılıqlar ustadı könüllərdən tac alar.

Zamanında qurulur hər hakimin taxtı da,
Səninlə hesablaşır günün, ayın vaxtı da.

Hər axşama, səhərə ölçü, meyar, düzümsən,
Könüllərə yol tapan doğru, düzgün sözümsən.

İcazə ver dolanım, dönüm sənin başına,
Düşüncə saatımı qurum vaxtın yaşına.

Ey zaman, üzün gülsün, işıq sal yaddaşıma,
Doğmalaşsaq, dilləşsək, dönərsən sirdaşıma.

Sözümlə qayıdaram ölməyən sevgilərə,
Xatirə çəmənində solmayan sevgilərə.

Dostum özü dağıdır yaddaşın dumanını,
Asta-asta danışır bir həyat romanını.

İsaxan görüb gəlib bu həyatın özünü,
O unutmur İlqarın ocağını, közünü.

Yanğı ilə danışır bir sevgi dastanını,
Sözə çəkir bir zaman solmuş gülüstanını.

Qoy gənclər yaxşı bilsin, ürək nədir, baş nədir,
Məhəbbətin uğrunda əbədi savaş nədir.

İlk addımı düz atsın gərək hər kəs yolunda,
Bayquş olsun qanmazlar, ha sağında, solunda.

Dinlədikcə sözümün sehrini toxuyuram,
Onun könül dilini, qəlbini oxuyuram.

Bir dərsdir gələcəyə aqillərin taleyi,
Yaxşı-pisi ayırar zamanların ələyi.

Bilmirəm, İsaxanın, bəlkə İlqar özüdür,
Bəlkə yanan bir dostun qəlb atəşi, közüdür.

İztirablar içində qovrulurdu İlqar da,
Ruhundan zərrə-zərrə sovrulurdu İlqar da.

Təskinliyi qəlbində Nananın nəfəsiydi,
“Can, ay İlqar, hardasan” çağıran öz səsiydi.

Nəğməli bülbül kimi xəyalında oxuyur,
Gələcəyin eşqinə ümid, inam toxuyur.

...Günlər ötür sürətlə, dəyişmir eşqin təbi,
Bu da kiçik çillənin sərt üzü - Xıdır Nəbi.

Çovğun gəldi, qar yağdı, ağır hava duruldu,
Könüllərdə istəyin ağ sarayı quruldu.

Gözləri qamaşdırır şəhərin ağ örpəyi,
Hər yanı bürümüşdü səhərin ağ örpəyi.

Gözəlliyin min donu... biri də qardan gəlir,
Bərəkət göy üzündən, qismətdən,vardan gəlir.

Ləkəsiz görünürdü zibilli küçələr də,
Uşaqlar da sevinir, oynayır küçələrdə.

Qocalar ehtiyatı addımlarda sınayır,
Yıxılanı görənlər qocalığı qınayır.

Qartopu oynamağı gənclər fürsət bilirlər,
Hədəfdəki qızlar da sevinirlər, gülürlər.

İlqar baxır Nananın titrəyən dizlərinə,
Təlaşdan alacağı, böyümüş gözlərinə.

Hər addımında İlqar qolundan tutur qızın,
Onsuz da çətin olur həyatı dayaqsızın.

*(Davamı 9-cu səhifədə)*

# III. Sevginin yanğısında

## "Ölməyən sevginin dastanı" əsərindən parçalar

(Əvvəli 8-ci səhifədə)

Bu həyatda sevgidən üstün dayaq yoxdur, yox,
Sevgiyə əvəz olmaz, başqa dayaq çoxdur, çox.

Sevgili təbəssümlə qız baxırdı İlqara,
İlqar onun gözündə bənzəyirdi çinara.

Gənclər asta yerişlə gəlib çatdılar bağa,
Fərəhin qanadında yetdilər uca dağa.

Sevginin könül bağı gənclərə qucaq açdı,
Məhəbbət iki qəlbə ocaq çatdı, od saçdı.

Sən olmasaydın, İlqar, bəxtim üzə gülməzdi,
Qəlbimin qəmlərini bir kimsə də bilməzdi.

Asta-asta tərpənir Nananın dodaqları,
Hərarətli duyğular gətirirdi baharı.

Nananın gözlərində eşqi sevinir, gülür,
İlqarın varlığına gün doğur, işıq gəlir.

Gənclərin sevgisinə qoşa çinar göz qoyur,
Xudbinlərin qəlbinə qüruruyla köz qoyur.

Qocaların həsrəti, uşaqların həvəsi,
Yaz gətirir bu bağa sevənlərin nəfəsi.

Bir-birinə sevgiylə baxan gözlər oynayır,
Ürəklərdə od yanır, atəş, vulkan qaynayır.

Ahənrüba duyğular, nəfəslər cazibədir,
Qovuşan dodaqları... sevənlər bilir nədir.

Bu vaxt iki göyərçin uçub qonur budağa,
Bəlkə onlar da gəlib bu eşqə, bu sorağa.

Dimdik dimdiyə durub öpüşür göyərçinlər,
Sevgilərə əyandır bu yuxular, bu çinlər.

Uğultuya Nana da, İlqar da baş qaldırır,
Sanarsan Fərhad özü dağ yarır, daş qaldırır.

Səngiməz min görüşə, sevənlərin yanğısı,
Vüsalsız məlhəm tapmaz iki qəlbin yanğısı.

Öz içində çırpınır, İlqar yollar axtarır,
Onlara qucaq açan doğma qollar axtarır.

Burda - yaxında olur qardaşımgil, gəl gedək,
Onlar da sevgimizi qoy bilsinlər, gül, gedək.

Qardaşımın - Vüqarın xanımıdır Nərminə,
İnanıram mən onun ürəyinə, qəlbinə.

Bilirəm ki, o bizi anlayacaq, biləcək,
Qəlbimizdən qorxunu, hürkünü də siləcək.

Arxa-dayaq olacaq hər çətində, asanda,
Sinə gərər xəbislər yolumuzu busanda.

İlqar yaxşı bilirdi, yolu oddan keçəcək,
Bəlkə də qınaqlarda özü addan keçəcək.

"Yol yordun, kimi tapdın" - deyəcəklər qanmazlar,
Sevgini bilməyənlər heç ürəkdən yanmazlar.

...Xoşsima, xoşrəftar bir xanımdır Nərminə,
Bir ana həyanıdır İlqarın hər deminə.

Doğmalıqla, istəklə İlqarı gözdən qoymur,
Bir suallı baxışı cavabdan, sözdən qoymur.

Neçə vaxtdır İlqarın gözlərində çən görür,
Hər məclisdən, yığnaqdan uzaq görür, gen görür.

Axır bir gün Nərminə İlqarı sözə çəkdi,
Sakit-sakit, təmkinlə doğruya, düzə çəkdi.

Bir de görüm nə olub, səni üzən nədirsə,
Gəl açıq de dərdini, qəlbini göynədirsə.

Görürəm ki, son günlər çox fikirli gəzirsən,
Qayğıların içində sən canını üzürsən.

İlqar əvvəl istədi düz cavabdan yayınsın,
Çətindir belə yerdə söz cavabdan yayınsın.

Nərminənin tələbi inadından dönmədi,
Analıq qayğısı da varlığında sönmədi.

İnsanlığı qoruyan mələklər də insandı,
İnsanlıq olan yerdə müşküllər də asandı.

Bu inamla İlqarın qəlbində işıq yandı,
Varlığında inamı sönməz nura boyandı.

Açdı ürək sirrini, gülləndi sözü bir-bir,
Qopardı sinəsindən alovu, közü bir-bir.

"Mən bir qızı..." sözünün davamını demədi,
Sükuta qərq olsa da, ancaq sözü yemədi.

Sevirəm mən bir qızı... qəlbimi ona verdim,
Mən onun gözlərindən könül gülümü dərdim.

Dünya onsuz gözümdə bir heçdir, viranədir,
Səsi qəlbimə yatan ülvi bir təranədir.

Elə bumu, ay İlqar, sevgi Allah payıdır,
Sevgisini qorumaq mərdin haqqı-sayıdır.

Yox, ay bacı, bilirsən?... İlqar bir an duruxdu,
Qəlbindən bir ah qopdu, yandı büryan duruxdu.

Yaxşı üzmə sən məni, axı burda pis nə var,
Açıq danış söylə bir, harda duman, sis, nə var?

O erməni qızıdır, axırı necə olar,
Onsuz mənim həyatım qaranlıq gecə olar.

Bir tərəddüd ötsə də, Nərminənin qəlbindən,
Özünü ələ aldı, dilləndi canı-dildən.

Qardaşınla danışım, düzərik biz hər işi,
Sevgiyə tabe olar bu həyatın gərdişi.

Adını söyləmədin, adını da de mənə,
Gör nəyin dərdin çəkir - dedi, güldü Nərminə.

Günəş doğdu İlqarın həsrət, hicran dağında,
Çiçək açdı bağ-bağat qışın oğlan çağında.

Utancaq səslə dedi "Adı Nanadır onun",
İlqar qan-tər içində bitirdi sözün sonun.

Çox gözəl, İlqar, biz də, ona Nanə deyərik,
Ətirli dağ nanəsi deyib, onu öyərik.

Həmin qarlı görüşdə bu söhbət yada düşdü,
İnamlı bir istəyə bu yerdə səda düşdü.

"Gəl gedək bizə, Nana" - inamla dedi İlqar,
Baxmaz qara-çovğuna, inam gətirər bahar.

Nananın gözlərində sevinc işığı yandı,
Hələ tezdir, ay İlqar, tərəddüdlə dayandı.

Sonra da qətiyyətlə gedərik, qoy bilsinlər,
Qoy düşünüb-daşınıb bir qərara gəlsinlər.

Mən də evdə anama bir az məlumat verim,
Görüm hələ çatarmı cəsarətim, təpərim.

Səmimi danışırdı Nana hər bir sözünü,
İlqardan gizlətmirdi doğrusunu, düzünü.

İlqar bir söz demədi, tutuldu, bulud kimi,
Sızıldadı ürəyi kaman kimi, ud kimi.

Günəşə zillənmişdi İlqarın baxışları,
Gözlərində bərq vurur sabahın naxışları.

Ümidlər zərrə-zərrə inama dolur, gedir,
Çatır mənzil başına, bəzən də solur gedir.

Qəhərə doldu İlqar, qəhərə gülümsədi,
Günəş də göy üzündən səhərə gülümsədi.

Bu gün gecdir, ay İlqar, indi mən gedim daha,
İnan ki, bir gedərik hər səhərə, sabaha.

İlqar dedi bəxtimiz çovğuna, qara düşməz,
İnanıram sevgimiz zülmətə, tora düşməz.

Nana da ümidləri qar üstə səpdi, getdi,
İncə bir təbəssümlə İlqarı öpdü getdi.

Hekayətin bu yeri sözümə duman saldı,
Xəyalımı min yerə apardı güman saldı.

Dostum İsaxana da gileyim var bu yerdə,
Axı niyə məni də şərik etdi bu dərdə.

İlqarla bir yanıram hər sətirdə, misrada,
Yanmaq da asan deyil aşiqlə bir sırada.

Ümidlərə yol açan gümansan, güman, sevgi,
Köhnəlməyən, ötməyən zamansan, zaman, sevgi.

...Tənhalıq duyğuları əsir aldı İlqarı,
Gözləriylə axtardı yenə tənha çinarı.

Necə açsın çinara ürəyinin dərdini,
Kəbədir aşiqlərə kədər dini, dərd dini.

Asta-asta gəldi o, tək çinarın yanına,
Astaca sığal çəkdi qəlbinin həyanına.

Çinarın gövdəsinə söykəndi burda İlqar,
Onu həmdəm bilirdi çətində, darda İlqar.

Bu bağda qoca çinar ona həyan olurdu,
Ağacın sükut dili varlığına dolurdu.

Çinar səssiz danışır... oğlum, həyat sınaqdır,
Sınaqdan çıxmayana həyat özü qınaqdır.

Çəkinməsən yolundan, tanrı haqqa döndərər,
Sevənlərin yoluna haqqı işıq göndərər.

Nanagilin işığı... gözlərinə süzülür,
Düşüncələr, duyğular sıralanır, düzülür.

Onu nələr gözləyir, hansı oddan keçəcək,
Bəlkə bu tale ona zülmət yolu seçəcək.

İlqarın sinəsində ocaq yanır deyəsən,
Bu bəlalı sevgini axı necə öyəsən.

Günəş də üfüqlərə çəkilib gedir daha,
Ümid, inam yön tutur, açılacaq sabaha.

Baxdım halına mən də İlqarın, qəlbim yandı,
Nigariyə təxmislə sözüm qana boyandı.

(Davamı 16-cı səhifədə)

# III. Sevginin yanğısında

## *"Ölməyən sevginin dastanı" əsərindən parçalar*

*(Əvvəli 9-cu səhifədə)*

Silməyə yanağını əllərim gülab istər,
Çat verən dodaqlarım yanğıma sirab istər,
Can gedirsə, bədəni qoymağa turab istər,
"Mən aşiqi-sevdayam, könlüm nə şərab istər,
Nə zümzümeyi-mütrüb, nə cəngü-rübab istər".

Dolanmaqdır başına, ey can, vərdişim hər dəm,
Odluğunda od üstə, közdür dəmkeşim hər dəm,
Aşiqindir sinəmdə yanan günəşim hər dəm,
"Ləbtəşneyi-sevdayam, sönməz atəşim hər dəm,
Dəryalar içərsəm gər, canım yenə ab istər".

Könlümdür səhra boyu gedər, gedənim büryan,
Oğrun-oğrun arxanca baxar, güdənim büryan,
Qoymaz sağala bir, qaysaq didənim büryan,
"Daği-dil ilə hər an olmuş bədənim büryan,
Məndən diləsin hər kim, zövqanə kabab istər".

Ağlayım döndər sözə, dərdimi kəlam eylə,
Könül versin yanında hər dəmi qalam, eylə,
Mən onun qadasını canıma alam, eylə,
"Gülbəngilə, ey mütrüb, şadanə salam eylə,
Meyxanəmə can versin kim ki meyi-nab istər".

Harda olsa səsinə can deyəm hər çağında,
Tuta oda könlümü bir yanam ocağında,
Nə ola bir can verəm, mən yarın qucağında,
"Səhbam ilə məstanə, meyxana bucağında,
Şövqanə düşər oynar, hər kim ki səvab istər".

Soraq apara yellər, tabımdan, tavanımdan,
Xəbər tutmaz yatanlar ahımdan, fəğanımdan,
Hərif bilməz kimsələr məni də kitabımdan,
"Meyxanəmə kim gəlməz, çəkməz meyi-nabımdan,
İnkarı qılır badəm bişübhə əzab istər".

Kimsə bilməz sevgidə, könüllər nə al eylər,
Eşqinin cəfasını aşiqlər halal eylər,
Baxtım hüsnünə mən də, könlüm min xəyal eylər,
"Miqdarını sevdamın dilbər nə sual eylər,
Hüsnünə qiyas etsin, məndən nə hesab istər".

Dağ edən ürəyimi közərən közümdür ki,
Heyranımı vəsf edən görkəzmə sözümdür ki,
Həsrət, hicran odunda qovrulan özümdür ki,
"Xali-xəttin dildaran mənzuri gözümdür ki,
Fərmani ilə nə oynar, nə nəqşi-kitab istər".

Xələfliyə dedim ki, kitab, əsərəm amma,
Min cəfaya, əzaba, dərdə dözərəm amma,
Qanmazların əlindən mən də bezərəm amma,
"Ey Miri Nigari, gər, piranəsərəm amma,
Hər yerdə içər könlüm, hər yerdə şərab istər".

